*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, Filologiya məsələləri № 1, 2025 Səh. 367-371* *ISSN 2224-9257*

https://doi.org/10.62837/2025.1.367

**YUNUS QULUZADƏ**
**ADPU**

# MİRZƏ ƏLƏKBƏR SABİRİN "ƏKİNÇİ" ŞEİRİNİN TƏDRİSİNDƏ FƏAL(İNTERAKTİV) METODDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ HAQQINDA

## XÜLASƏ

***Açar sözlər: Mirzə Ələkbər Sabir, poeziya, satira, müəllim, fəal təlim, şagird, mətnə münasibət, fəallıq.***

Mirzə Ələkbər Sabir Azərbaycan ədəbiyyatının görkəmli simalarından biridir. XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb yaratmış, böyük şairin poeziyası bu gündə cəmiyyətimiz üçün aktualdır. Sabirin poetik nümunələri, xüsusilə də onun dərin mənalı satiraları xalqımızın milli təfəkkürünün inkişafında böyük səmərə verir, insanları düzlüyə, ədalətə səsləyir. Şairin yaradıcılığının gənc nəslə öyrədilməsi olduqca zəruridir, çünki bu poetik nümunələr şagirdlərin milli-mənəvi tərbiyəsini daha da inkişaf etdirir, onların sağlam ruhda böyüməsinə təkan verir. Sabirin "Əkinçi" şeirinin orta məktəblərdə fəal(interaktiv) üsulla tədrisi şagirdlərin dünyagörüşünün formalaşmasında əhəmiyyəti böyükdür. Bu təlim prosesində şagirdlərin həyata baxışları, hadisələrdən baş çıxarmaq imkanları daha da artır.

**Yunus Guluzade**

# ABOUT THE İMPORTANCE OF USİNG FROM ACTİVE(İNTERACTİVE) METHOD İN THE TEACHİNG OF "EKİNCHİ" POEM OF MİRZA ALAKBAR SABİR

## SUMMARY

***Keywords: Mirza Alakbar Sabir, poetry, satire, teacher, active learning, student, attitude to the text, activism.***

Mirza Alakbar Sabir is one of the prominent figures of Azerbaijani literature. The poetry of the great poet, who lived and created at the end of the 19th and beginning of the 20th centuries, is relevant for our society today. Sabir's poetic examples, especially his deeply meaningful satires, have a great effect on the development of the national thinking of our people, calling people to honesty and justice. It is extremely necessary to teach the poet's work to the younger generation, because these poetic examples further develop the national and spiritual education of students, and give them an impetus to grow in a healthy spirit. Teaching Sabir's poem "Ekinchi" in secondary schools in an active (interactive) way is of great importance in the formation of students' worldview. In this educational process, students' views on life and opportunities to make sense of events increase even more.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 367-371*

**Юнус Гулузаде**

## О ВАЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ АКТИВНОГО (ИНТЕРАКТИВНОГО) МЕТОДА В ИЗУЧЕНИИ ПОЭМЫ МИРЗЕ АЛЕКПЕРА САБИРА «ЭКИНЧИ»

***Ключевые слова: Мирза Алекпер Сабир, поэзия, сатира, активное обучение, учитель, ученик, активизм, отношение к тексту.***

Мирза Алекпер Сабир один из выдающихся деятелей азербайджанской литературы. Поэзия великого поэта, жившего и творившего в конце XIX – начале XX века, актуальна и сегодня для нашего общества. Поэтические примеры Сабира, особенно его глубокие сатиры, оказывают большое влияние на развитие национального мышления нашего народа, призывая его к честности и справедливости. Преподавать творчество поэта молодому поколению очень необходимо, ибо эти поэтические примеры еще больше развивают национально-духовное воспитание учащихся, побуждают их расти в здоровом духе. Большое значение в формировании мировоззрения учащихся имеет активное (интерактивное) преподавание стихотворения Сабира «Крестьянин» в общеобразовательных школах. В этом процессе обучения взгляды учащихся на жизнь и возможности извлечь уроки из событий еще больше возрастают.

Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mirzə Ələkbər Sabir poeziyamızda yeni bir cığır açmışdı. O, rastlaşdığı bütün çətinliklərə baxmayaraq dövrünün bütüb eybəcərliklərini cəsarətlə tənqid etmiş, bütün varlığı ilə sevdiyi millətin parlaq gələcəyi üçün çalışmış, insanların təhsil almasını, maariflənməsini ön plana çəkmişdir. XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb-yaratmış bu dahi şəxsiyyətin poeziyası indi də aktuallığını saxlayır, dövrün, zamanın hadisələrinə nüfuz edir. Şairin poetik nümunələri, xüsusilə də onun dərin mənalı satiraları xalqımızın milli təfəkkürünün inkişafında böyük səmərə verir, insanları düzlüyə, ədalətə çağırır, xalqın mənafeyinə, onun sərvətinə göz dikənlərə qarşı mübarizəyə səsləyir. Ona görə də bu sənətkarın əsərlərinin orta məktəb dərsliklərinə salınması, onların gənc nəslin tərbiyəsində böyük əhəmiyyət kəsb etməsi təqdirəlayiq hal kimi dəyərləndirilir. Çünki Sabirin şeirlərinin hamısının mövzusu müasir cəmiyyətimizdə baş verən hadisələrlə səsləşir və onların tədris olunması gənclərimizin mənəvi tərbiyəsində mühüm rol oynayır. Bu mənada böyük şairin şeirləri günümüz üçün olduqca aktualdır və gənclərin ondan həvəslə bəhrələnməsi danılmaz faktdır.

Məlumdur ki, M.Ə.Sabir Azərbaycanın dilbər guşələrindən olan Şamaxıda kasıb bir ailədə dünyaya göz açmışdır. Uşaqlıq illərinin ilk vaxtlarında mollaxanada, daha sonra isə Şamaxıda açılan yeni üsullu məktəbdə oxumuşdur. O vaxtlar bu məktəbə böyük şairimiz Seyid Əzim Şirvani rəhbərlik edirdi. Həssas

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 367-371*

insan olan Seyid Əzim yeni şagirdinin istedadlı olduğunu ilk andaca dərk etmiş, onun təlim-tərbiyəsinə xüsusi diqqət yetirmişdir.

Sabir bədii yaradıcılığa gənc yaşlarında, daha dəqiq XIX əsrin sonlarında başlamışdır. O, yaradıcılığa başladığı ilk gündən müasirlərindən tamamilə fərqlənmiş, klassik şeir üslubunun ənənəvi yanaşmalarından kənara çıxmışdır. Gənc şair qəzəllərində, eləcə də digər janrlarda yazdığı şeirlərində zəmanəsinin eyiblərini kəskin şəkildə tənqid etməyə başlamışdı. Zaman keçdikcə onun şeirləri daha çox ictimai məzmun daşımağa başlamışdı. XX əsrin əvvəllərində isə onun şeirləri dövrünün eybəcərliklərini, ziddiyyətlərini aydın şəkildə açıb göstərdiyinə görə haqlı olaraq şairi "ziddiyyətləri dərindən duyan, bununla barışmayan, mübarizə yolunu üstün tutan vətəndaş" adlandırırlar.

M.Ə.Sabirin mövzu baxımından müxtəlif olan satiraları çox zəngindir. Bu zəngin poetik nümunələr sonda bir nöqtədə - xalqın həyatı və taleyi məsələsində birləşir. Onun şeirlərindəki bu birləşməni cəmiyyətin bütün üzvlərinə şamil etmək mümkündür. Şairin yaradıcılığında mühüm yer tutan mövzulardan biri də kəndli və fəhlə həyatı ilə bağlıdır. Kəndlinin dözülməz həyatı, mülkədarların, bəylərin zülmü onun "Əkinçi" şeirində tam aydınlığı ilə bədii əksini tapmışdır.

"Əkinçi" satirasının orta məktəblərdə uğurlu tədrisi müəllimin müəyyən bilik və bacarığa sahib olmasından çox asılıdır. Belə ki, o, dərs prosesində standartları, inteqrasiya imkanlarını, qiymətləndirməni və şairin yaradıcılığının tədrisində müasir tələbləri dəqiq müəyyənləşdirməli, düzgün elmi-metodiki imkanlara əsaslanmalıdır. M.Ə.Sabir bütün poetik nümunələrində olduğu kimi bu şeirdə də düzü düz, əyrini əyri yazmaq üslubuna sadiq qalmış, xalqın ağır həyatını, onların cəhalət içində yaşamasını, səhərdən axşama kimi işləməsinə baxmayaraq yenə də qarnı ac olan əkinçinin acınacaqlı, ağır həyat sürməsini real bədii lövhələrlə oxucuya çatdıra bilmişdir. Şairi narahat edən məsələləri şagirdlərə dərindən aşılamaq üçün müəllim dərsin gedişini düzgün qurmalı, satiranın məzmununu onlara düzgün aşılamağı bacarmalıdır. Müəllim qarşıya qoyduğu məqsədə nail olmaq üçün ilk növbədə sinfin təşkilinə xüsusi diqqət yetirməli, ev tapşırıqları yoxlanıldıqdan sonra söhbəti yeni mövzuya yönəltməli və onlarda maraq yaratmaq üçün Sabirin yaradıcılığı ilə bağlı şagirdlərə belə bir sualla müraciət edə bilər: " Sizcə, Sabirin lirikasında hansı ictimai-siyasi hadisələrə münasibət bildirmişdir? " və yaxud " Sabirin satirik şair kimi formalaşmasına təsir edən amillər nədən ibarətdir?". Təbii ki, şagirdlər verilən suallara bacardıqları səviyyədə cavab verirlər. Bu cavabları ümumiləşdirən müəllim özü üçün tədqiqat sualları müəyyənləşdirərək əsas diqqəti satiranın məzmununa yönəldir və şagirdlərə məsləhət bilir ki, hər kəs satiranı fərdi şəkildə oxusun, aldıqları təəssüratları, onlarda yaranan sualları özləri üçün qeyd etsinlər. Bundan sonra satiranın ideya-məzmunu üçün ətrafında daha maraqlı və önəmli olan məsələlərlə bağlı müəllimlə şagirdlər arasında diskussiya aparılır.

Satiradan da açıq-aydın hiss olunur ki, insan həyatına laqeydlik humanist şairi sarsıtdığı kimi insan taleyi ilə amansız rəftar da onu hiddətləndirir, şairi daha kəskin, daha da tənqidi şeirlər yazmağa istiqamətləndirir:

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

Bir üzrlü hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,
Ləğv olma, ədəb gözlə bu məvadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Yeri gəlmişkən onu da qeyd edək ki, dərs prosesində şairin satiralarının bədii xüsusiyyətləri haqqında dəqiq məlumat verilməlidir. Onlara aşılanmalıdır ki, şair yaratdığı hər bir fərdi, satirik tipi onun xarakterinə və dünyagörüşünə uyğun dildə danışdırır, onun haqqında dolğun təsəvvür yaradır. Satiranın ilk bəndindən də görünür ki, mülkədarlar sadə insanlara yuxarıdan aşağı baxır, onların ağır zəhmətini qiymətləndirmək əvəzinə, çox laqeyd münasibət bəsləyir, onların fəryadını vecinə almır, əksinə zəhmətkeş insanların imdadına yardım etmək istəmir, qapısına gəlib boynunu buraraq kömək istəyən insanları alçaldır, onları yalançı, tülkü adlandırır. Şair insanlığa qarşı edilən bu ədalətsizliyi qəbul edə bilmir, insanların acizliyi onu daha da məyus edir. Şair zalımın zülmünə məzlumun dözməsini, özünü səbirli aparmasını heç cür qəbul edə bilmir:

Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?
Əsdi qara yel çəltiyə, bostanə, nə borcum?
Getdi mənə nə fələliyin badə, əkinçi!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Fəal/interaktiv tədris prosesində hər hansı əsərin məzmununun öyrədilməsi zamanı mətnin şagirdlər tərəfindən düzgün anlaşılması üçün bədii nümunə müəllim tərəfindən oxunur, müəyyən anlaşılmazlıq yaranan zaman şeir bir daha misra-misra oxunaraq məzmunla bağlı müəyyən diskussiya aparılır. M.Ə.Sabirin "Əkinçi" şeirində verilən bəndlərin dərsdə göstərilən qaydalara əməl olunaraq öyrədilməsini daha məqsədəuyğun hesab etmək olar. Ona görə ki, keçən əsrin ortalarında yazılmış şeirin bu bəndlərində tanış olmayan söz və ifadələrlə rastlaşılır. Şeirdə olan "dehqanə", "bəcəhənnəmə" və sairə kimi sözlərin mənasını şagirdlərə düzgün aşılamaq lazımdır ki, şeirin ümumi məzmununa xələl gəlməsin.

Sabirşünas alimlərin böyük əksəriyyətinin qeyd etdiyi kimi böyük şair heç vaxt dövrünün ictimai bərabərsizliyini qəbul etməmiş, haqsızlığa və ədalətsizliyə qarşı barışmaz mövqeyi ilə seçilmişdi. Xeyirxahlıq, ədalət carçısı olan Sabir şeirdə

insanlığın arasında böyük uçurum yarandığını aydın göstərə bilmişdi. Aşağıdakı bəndlərdə də şairin gəldiyi qənaət tam aydınlığı ilə öz əksini tapır:

Cütçü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,
Öyrəşməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!

Nümunələrdən də göründüyü kimi şeirdə şairin tənqid hədəfləri müxtəlifdir. Lakin bu tənqid olunan tərəflərin şagirddə yaratdığı təəssüratı müəyyənləşdirmək olduqca zəruridir. Bunun üçün müəllim şagirdlərin hazırladıqları təqdimatla tanış olmalı və onların nəticələrini ümumiləşdirib sinifdə elan etməlidir. Təbii ki, bu zaman əldə olunmuş fikirlərin üst-üstə düşdüyü məqamlar da şagirdlərin nəzərinə çatdırılmalı və nələrin yeni olduğu müəyyənləşdirilməlidir. Sonda isə müvafiq təlimata uyğun olaraq şagirdlərin qiymətləndirilməsi aparılır və ev tapşırı barədə məlumat verilir.

## ƏDƏBİYYAT

1. M.Ə.Sabir . Hophopnamə. Bakı "Turan" nəşrlər evi, 2002;
2. Həsənli B.A. Kurikulum üzrə ədəbiyyat dərslərində “M.Ə.Sabirin Əkinçi şeirinin öyrədilməsi imkanları”, Bakı, 2016;
3. Ədəbiyyat (VIII sinif üçün dərslik), Bakı, 2019.
4. XI sinif şagirdləri üçün elektron vəsait. http:/edebiyyat.ucoz.com;
5. M.Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı, Bakı, 2019;
6. XX əsr Azərbaycan şeir antologiyası(1905-1920-ci illər), Bakı, Şərq-Qərb, 2005;
7. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, Bakı, 2023;
8. Yusifov F. Məktəbdə ədəbiyyat dərslərinin təşkili, Bakı, 2003;
9. Veysova Z. Fəal(interaktiv) təlim, müəllim üçün vəsait, Bakı, 2007.

**Rəyçi: Razim Məmmədov filologiya üzrə fəlsəfə doktoru, dosent**